AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
“NAXÇIVAN” UNİVERSİTETİ

Təsdiq edirəm:____________(kafedra müdiri)
Tarix: 08 sentyabr 2022

| | | |
|---|---|---|
| Fənnin təsviri | Fənn (adı, krediti) | “Turizm marşrutları və ekskursiya işinin təşkili” 7 kredit |
| | Fakültə | İqtisadiyyat |
| | İxtisas | İqtisadiyyat |
| | Səviyyə (bakalavriat, magistratura) | Bakalavriat |
| | Kurs | III |
| | Semestr | V |
| | Təlimçi | Cabbarov Əli Xeybər oğlu, i.f.d., dos. |
| | e-mail | acabbarov@mail.ru |
| | Telefon | +994503113395 |
| | Dərs günləri və saatları | II gün 2-ci s., IV gün 1-ci s. |
| Tədris dili | Azərbaycan | |
| Baza/ Seçmə | Baza | |
| Tələb olunan dərsliklər və dərs materialları | Əsas ədəbiyyatlar:<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı<br><br>Əlavə ədəbiyyatlar:<br>Rəhimov S.H. Turizm-ekskursiya iþinin təþkili. Dərs vəsaiti. Baký: Mütərcim, 2004, 312 s. | |
| İstifadə ediləcək web səhifələr | http://www.kitabxana.net/files/books/file/1534009392.pdf | |
| Fənnin xülasəsi | Muasir turizm öz inkişafına görə müəyyən istiqamətlərdə turizm destinasiyalarının yaradılması ilə əlaqədardır. Bu destinasiya daxilində yaradılacaq turizm marşrutları, onların cazibədarlığı, iqtisadi əsaslandırılması və təhlükəsizliyi turizm marşrutları və ekskursiya işinin təşkili üzrə əsas problemlərdən biridir. Bununla əlaqədar olaraq turizm marşrutlarının hazırlanması, onların təsnif olnması müvafiq lahiyələndirmə mərhələlərindən keçməsi və turistlərə təklifi məsələsi yaranır.<br><br>Turizm məhsulunun tərkibində ekskursiyalar mühüm yer tutur. Ekskursiyalar turizmin baş verməsi üçün mühüm şərtlərdən biri hesab olunur. Ekskursiya işi turizm fəaliyyəti təşkilinin ən mühüm bölmələrindən olub, turistlərin ətraf aləmi əyani olaraq dərk etməsinin ən populyar formalarından biridir. | |
| Fənnin məqsədləri | “Turizm marşrutları və ekskursiya işinin təşkili” fənninin öyrənilməsində *məqsəd* tələbələrin turizmin, turizm fəaliyyətinin müxtəlif növləri və turizm marşrutlarının spesifikası haqqında təsəvvürlər əldə etməsidir. Bu baxımdan aşağıdakı əsas məqsədləri göstərmək olar:<br><br>Turizm marşrutu nümunələri üzrə işlərin hazırlanması;<br><br>Turizm marşrutlarının layihələndirilməsi üzrə təsəvvürlərin yaradılması;<br><br>Turizm üzrə ədəbiyyatlardan, mənbələrdən və internet resurslardan istifadə | |

<table>
<tr><td></td><td colspan="3">vərdişlərinin yaradılması;<br><br>Ekskursiya işi sahəsində tələbələrin nəzəri, metodik və təcrübi qabiliyyətlərinin formalaşdırılması.</td></tr>
<tr><td>Öyrənmə nəticələri</td><td colspan="3">Turizm marşrutu timsalında turizm məhsulunun spesifikasının öyrənilməsi;<br><br>Məzmununa, davam etmə müddətinə və əhatəliliyinə görə turizm marşrutlarının müxtəlifliyinin öyrənilməsi;<br><br>Turizm marşrutlarının formalaşdırılmasının nəzəri əsaslarının mənimsənilməsi;<br><br>Hazırlanma mərhələsində olan turizm marşrutlarına olan normativ və dərəcə tələblərinin öyrənilməsi;<br><br>Turizm və ekskursiya fəaliyyəti sahəsində təsəvvürlərin yaradılması;<br><br>Ekskursiyanın ümumi və spesifik əlamətlərini və funksiyalarının açılması;<br><br>Ekskursiyanın keçirilmə formaları və təsnifatları ilə tanış olunması;<br><br>Ekskursiyanın təqdimatı yerinin müəyyən olunması;<br><br>Ekskursiyanın əsas hazırlanma mərhələləri ilə tanış olunması;<br><br>Ekskursiyanın keçirilməsi haqqında ümumi təsəvvürlər əldə edilməsi;<br><br>Fənn üzrə nəzəri və praktiki tapşırıqların yerinə yetirilməsi mədəniyyətini formalaşdırmaq.</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">30 saat</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">30 saat</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td colspan="2"></td></tr>
<tr><td>Simulyasiya</td><td colspan="2"></td></tr>
<tr><td>Layihə</td><td colspan="2"></td></tr>
<tr><td>Digər</td><td colspan="2"></td></tr>
<tr><td rowspan="11">Qiymətləndirmə</td><td colspan="2">Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td colspan="2">Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td colspan="2">1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="2">- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Tələbələrin sərbəst işinə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td colspan="2">- Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal</td><td>30 bal (30%)</td></tr>
<tr><td colspan="3">Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.</td></tr>
<tr><td colspan="2">2. İmtahan nəticələrinə görə maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td colspan="3">3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” - A</td></tr>
<tr><td colspan="2">Cəmi:</td><td>100 bal (100%)</td></tr>
</table>

| Qiymətl. metodları | Yazılı imtahan |
|---|---|
| Qaydalar | Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

| Tematik plan | | | |
|---|---|---|---|
| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıq / Ədəbiyyat |
| 1 | | *1.Turizm marşrutu analyışı*<br><br>Turizm və turizm destinasiyaları. Tur turizm marşrutlarının əsas tərkib elementi kimi. Turizm marşrutları və onların cazibədarlığı. Turizm marşrutları və ekskursiyalar. Turizm marşrutlarının iqtisadi əsaslandırılması. Turizm marşrutlarının təhlükəsizliyi. Marşrut və onun definasiyası. Turizm marşrutu üzrə göstərilən xidmətlər. Fərdi turlar. Zərf turlar. Zərf turların üstün cəhətləri. Zərf turların çatışmaz cəhətləri. Fərdi turların xüsusiyyətləri. | Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 2 | | *2. Turizm marşrutlarının növləri*<br><br>Turistlərin səyahət motivlərinə, turların müddətinə , istifadə olunan nəqliyyat vasitələrinin növünə görə turizm marşrutları.<br><br>İstirahət, sağlamlıq, təbiətlə tanışlıq, safari, raftinq, macəra, foto ovçuluq, çətin keçilən yerlərdən təşkil olunan marşrutlar.<br><br>Çoxgünlük, bir neçə günlük marşrutlar, bir neçə saatlıq ekskursiyalar.<br><br>Piyada, qoşqulardan istifadə etməklə marşrutlar, dəmiryolu marşrutları, hava yolu marşrutları, su yolu marşrutları, avtomobil və qarışıq turizm marşrutları. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| 3 | | *3.Turizm marşrutlarının təsnifatı*<br><br>Tiplərinə görə turizm marşrutları. Tematik turizm marşrutları, yürüş marşrutları, fiziki-sağlamlıq turizm marşrutları. Tanışlıq və ekskursiya məqsədli turizm marşrutları. İstifadə etdiyi nəqliyyat vasitələrinə görə turizm marşrutları. Avtobus turizm marşrutları. Teploxod turizm marşrutları, hava yolu turizm marşrutları. Qatar və qarışıq nəqliyyat vasitələri üzrə marşrutlar. Xətti quruluşuna görə marşrutlar. Xətti, radial, dairəvi marşrutlar Məzmununa görə turizm marşrutları. Təbiətlə ünsiyyət turizm marşrutları. Dənizlə ünsiyyət turizm marşrutları. Dağlarda gəzinti turizm marşrutları. Ovetmə və mənalı istirahət turizm marşrutları. Tarixi yerlərə baxış turizm marşrutları. Təhsil və maariflənmə turizm marşrutları | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 4 | | *4. Turizm marşrutlarının planlaşdırılması mərhələləri*<br><br>İlkin şərtlər. Turizm marşrutlarının planlaşdı-rılmasının hüquqi mərhələsi.Turizm marşrutlarının planlaşdırılmasının təşkilati mərhələsi. Turizm marşrutlarının planlaşdırılmasının texniki mərhələsi. Turizm marşrutlarının planlaşdırılmasının kadr mərhələsi. Turizm marşrutlarının planlaşdırılması zamanı infrastruktur təminatı. Turizm marşrutu boyunca istehlakçi davranışlarının müəyyənləşdirilməsi. Turizm marşrutlarının informasiya təminatı. Turistlərin marşrut boyu keçəcəyi məntəqələrin müyyənləşdirilməsi. Ekskursiya müddətində marşrut boyunca hava şəraiti, yol-naviqasiya şəraiti, hədiyyəlik əşyalar, çay-kofe fasiləsi yerləri, turizm informasiya mərkəzləri, maşın kirayə məntəqələri, motellər, yanacaq doldurma məntəqələrinin müəyyənləşdirilməsi. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| 5 | | *5. Turizm marşrutlarının perspektiv planlaşdırılma*<br><br>Turların formalaşdırılmasındakı resurslar. Təbii, əmək, maliyyə və informasiya resursları. Resursların seçilməsi. Resurslara olan tələbatın qiymətləndirilməsi. Turizm marşrutları boyunca göstərilən xidmətlərin istehlak dəyəri, onların faydalılığı, etibarlılığı. Qonaqpərvərlik amilindən istifadə. Turizm marşrutları boyunca idarəetmə proseslərinin planlaşdırılması. Turist qrupundakı üzvlərin sayına görə, onların nəqliyyat, qida və yerləşmə tələbatına görə planlaşdırma. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 6 | | *6. Turizm marşrutları üçün ilkin şərtlər*<br><br>Hüquqi, təşkilati texniki, kadr, infrastruktur təminati. Ölkənin milli maraqları, qanunvericilik. Beynəlxalq hüquq.<br><br>Ekspertlərin tapılması. Zəruri informasiya verəcək mənbələrin əldə olunması. İnformasiyaları işləyəcək mərkəzin yaradılması.<br><br>Yaradıcı komandanın normal fəaliyyəti üçün ofisin hazırlanması. Komputer və ofis texnikası, nəqliyyat vasitələri, foto və video avadanlıqlar. Xüsusi geyimlər.<br><br>Turizm mütəxəssisləri, texniki işçilər, asistantla, bələdçilər. Turizm marşrutlarının hazırlanmasında ərazi təminatı, istehsal və ticarət imkanları, bazar infrastrukturu, sosial infrastruktur. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 7 | | *7. Turun hazırlanma texnologiyası*<br><br>Tur istehlakçı tələbini ödəyən məhsul kimi. Turun seçilmiş seqmentə uyğun tələbi ödəməsi. Turistlərə yüksək xidmət və peşəkar mədəniyyət təqdim olunması. Turu həyata keçirən turizm firmasının iqtisadi cəhətdən məqsədəuyğun işinin təmini. Müəssisə fəaliyyətinin mənfəətlə yekunlaşması.<br><br>Turizm firmasının təşkitati - huquqi | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| | | formasının seçilməsi, onun təşkitati strukturunun formalaşdırılması. Müəssisənin idarəetmə sisteminin müəyyənləşdirilməsi. Firmanın istehsal - təsərrüfat funksiyalarının müəyən olunması. Firmanın rəsmi qeydiyyatdan keçirilməsi | |
| 8 | | *8. Turizm marşrutlaının hazırlanma metodologiyası*<br><br>Metodologiya anlayışı. Nəzərdə tutulan yol boyu mövcud olan turizm ehtiyatlarının öyrənilməsi. Həmin resurslardan istifadəyə məhdudiyyət yaradan səbəblərin öyrənilməsi. Verilmiş marşrut üzrə təklif olunan xidmətlərin marketinq araşdırmasının aparılması.<br><br>Marşrutun tipinin seçilməsi. Marşrutun eskiz modelinin qurulması. Marşrut üzrə konkret yolların qurulması.<br><br>Turmarşrutda hərəkət qrafiki və təqvimə görə səyahətlərin tətbiq olunması. Marşruta vacib həyati ehtiyacların qarşılanması üçün lazım olan məntqələrin daxil edilməsi. Marşrutun təhlükəsizlik sxeminin qurulması. Marşrutun pasportunun hazırlanması. Bu paspotun müvafiq qurumlarla razılaşdırılması. Marşrut üzrə test yürüşlərin aparılması. Marşrutun sxeminə lazım olan dəyişikliklərin edilməsi. Marşruta yenidən baxılıb təsdiq olunması. | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 9 | | *9.Turizm marşrutlarında xidmətlər zərfi*<br><br>Xidmətlər zərfi. Yerləşdirmə, qida, daşınma, ekskursiya, asudə vaxt və əyləncə, məişət xidmətləri, idman və mədəni proqramlar, turist yürüşləri.<br><br>Mehmanxanalar və onların seçilməsi. Mehmanxananın tipi və yeri. Restoranlar, onlarn yemək xidmətləri. A-la kart və İsveç masası. Yarımpansion və tam pansion xidmətlər.<br><br>Nəqliyyat vəsitələri. Hava yolu və dəmir yolu variantlarının seçilməsi. Avtomobil kirayəsi. İdman və sağlamlıq tədbirləri. Yürüş və | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| | | trekinqlər. Viza və sığorta xidmətləri. Biletlərin rezervasiyası və alınması | |
| 10 | | *10. Turlar zamanı turoperator, təchizatçı və nəqliyyatçılarla müqavilələrin bağlanılması*<br><br>Turopreator və xidmət təchizatçıları. Xidmət təchizatçılarının seçilməsi. Mehmanxanalar, nəqliyyat şirkətləri, restoarnlar və ekskursiya büroları ilə danışıqların aparılması. Tərəflərin öhdəlikləri və daşınan məsuliyyət. Cərimə və sanksiyalar. Fors-major situasiyalar zamanı tərəflərin vəzifələri. Potensial risklər və onların qiymətləndirilməsi. Tərəflərin hüquqları. Bağlanılan müqavilələrin milli və beynəlxalq hüquqi təminatı. Səyahət müqavilələri üzrə beynəlxalq konvensiyanın (22 oktyabr 1970) sənədləri. Hava yolları daşımaçılığı üzrə Varşava konvensiyası (12 oktyabr 1929). Avtomobilə sərnişin daşımaçılığı üzrə Cenevrə və baqaj daşımaçılığı üzrə Brüssel konvensiyası (1967). Azərbaycan Respublikasının Turizm Haqqında Qanunu (1999).<br><br>Turizm yollayışı. Xidmətlərin siyahısı, qiyməti, vaxtı, keyfiyyəti və tətbiq olunan güzəştlər. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 11 | | *11. Turizm marşrutunun maddi-texniki təminatı*<br><br>Əsas ləvazimatlar. Nəqliyyat vasitələri. Yüklərin və turist ləvazimatlarının daşınması üçün nəqliyyat. Qoşqular. Düşərgə ləvazimatları. Yemək üçün ləvazimatlar. Çadırlar və yataq ləvazimatları. Xüsusi montaj alətləri. Tonqal yandırmaq üçün ləvazimatlar. Xüsusi geyimlər. Eynək, dəbilqə və əlcəklər. Tibbi ləvazimatlar. Turist çantaları.<br><br>Əlavə ləvazimatlar. Fənər, kamera, araşdırma vasitələri. Fərdi əşyalar, təmizlik-gigiyenik vasitələr. Quru və zülallı yeməklər, Şirələr, su ehtiyatı. Xəritə və kompaslar. Durbin və CPRS cihazları. Kanat və troslar. Marşru boyunca | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| | | dayanacaqlar. Yanacaq və elektrik doldurma. Sanitar qovşaqlar, səyyari duşlar. | |
| 12 | | *12. Turizm marşrutunun kadr və metodik təminatı*<br><br>Firmaya mütəxxəsisi və işçilərin seçilməsi. Marşrut üzrə digər mütəxəssislərin dəvət olunması. Marşrut üzrə xidməti müəssisələrin kadrlarının müəyyənləşdirilməsi. Texniki işçilərin müəyyənləşdirilməsi. Daimi və müvəqqəti işçilərlə müqavilələrin bağlanılması. Əmək haqqı və sığorta müqavilələrinin bağlanılması. Marşrutun xüsusiyyətləri üzrə elm və tədris müəssisələri ekspertlərinin rəylərinin alınması. Marşrutun təhlükəsizlik dərəcəsinin müəyyən olunması. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 13 | | *13. Ekskursiya fəaliyyəti*<br><br>Ekskursiya və onun mahiyyəti. Ekskursiya və turizm məhsulu. Səyahətlərin əsas motivləri. Ekskursiyanın mövzusu.<br><br>Ekskursiya praktiki fəaliyyət növü kimi. Ekskursiya fəaliyyəti tədbirlər sistemi kimi. Ekskursiyanın funksiyaları, əlamətləri, təqimatların xüsusiyyətləri. Ekskursiya metodları, ekskursiyaların təsnifatları. Ekskursya xidəmtlərinə müxtəlif yanaşmalar, ekskursiyaların metodologiyası, ekskursiyanın pedaqogikası və məntiqi. Bələdçinin peşəkarlığı | Mühazirə materialları<br><br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 14 | | *14. Ekskursiyaların hazırlanması*<br><br>Ekskursyiadan əvvəlki hazırlıq işləri. Ekskursiya obyektinin seçilməsi. Müəyyən marşrut üzrə informasiyaların toplanması. Arxiv materiallarından, internet saytlarından, turistlərin xatirələrindən, kino-video materiallarından istifadə.<br><br>Ekskursiya zamanı məntiqi ardıcıllıq. Məqsəd və vəzifələrin müəyyən olunması. Mövzunun seçilməs. Ekskursiya obyekti uçün digər mənbələrin seçilməsi. Potensial ekskursiya obyektləri: abidələr, təbii obyektlər, təbiət güşələri, muzey ekspozisiyalır. Ekskursiya | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| | | obyektlərinin yerinə, məzmununua, mühafizə olunma və funksional təyinatına görə təsinifatı.<br><br>Ekskursiya marşrutunun tərtib olunması. Marşrutların tərtib olunmasının əsas variantları: xronoloji, tematik və tematik-xronoloji marşrutlar.<br><br>Marşrutun keçilməsi. Ekskursiyanın test olunması. Ekskursiya portfelinin hazırlanması. Ekskursiyanın keçirilməsi üçün lazım olan metodik təlimatların qəbul edilməsi. Ekskursiyanın aparılması texnikasının müəyyənləşdirilməsi. Ekskursiya mətninin tərtib olunması. Ekskursiya mövzusu ilə əlaqələr məntiqi keçidlər. Ekskursiyanın təsdiq olunması. | |
| 15 | | *Mövzu 15. Ekskursiya zamanı təqdimatın quruluşu*<br><br>Təqdimat ekskursiyanın əsas elemanti kimi. Təqdimatın mahiyyəti. Təqdimat zamanı sıra. Təqdimatın mərəhələləri və növləri. İnsan və obyekt anlayışının qarşılıqlı əlaqə variantalır. Təqdimat ekskursya obyektinin reallaşma prinsipi kimi.<br><br>Nitqə qarşı tələblər. Ekskursiya zamanı nitqin vəzfələri. Nitq zamanı predmetin seçilməsi. Nitqin ziyarətçi təsəvvürün çevrilməsi. Bələdçinin fərdi xüsusiyyətləri. Təqdimat və nitq ekskursiyanın iki əsas elementidir. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 16 | | *Mövzu 16. Ekskursiyanın keçirilmə texnikası*<br><br>Bələdçinin qrupla tanışlığı. Qrupların obyektlər üzrə yerləşdirilməsi. Ekskursantların nəqliyyat vasitələrindən obyektlə, obyektlərarası və obyektdən nəqliyyat vastəsinə hərəkəti. Ekskursiya zamanı vaxt məhdudyyətinin nəzərə alınması. Nəqliyyat vasitəsinin hərəkəti zamanı təqdimatın aparılma texnikikası. Fasilələrdən istfadə olunması. Məktəblilərlə iş. Seçilmiş mövzu üzrə tədris ekskursiyalarının keçilməsi. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 17 | | *17. Ekskursiyalarda təsəvvür yaratma* | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları |

| | | | |
|---|---|---|---|
| | | *metodologiyası*<br><br>Ekskursiyalar psixoloji bir proses kimi. Yeni təəssüratların formalaşdırılması və onların turistlərin yaddaşında əks olunması. Bələdçinin ustalığı, onun hadisələrə dəqiq yanaşması. Ekskursiyalarda yaradılan təsəvvürlərin növləri. Əsaslı, inandırıcı təsəvvürlər. Əsassız, inandırıcı olmayan təsəvvürlər. Yaradıcı təsəvvürlər. Aktiv və passiv təsəvvürlər. Yenidən yaradılmış təsəvvürlər. Emosional faktor | və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 18 | | *Mövzu 18. Bələdçinin peşəkar ustalığı*<br><br>Bələdçinin fərdi keyfiyyətləri. Fəal həyat tərzi. Bələdçinin kostruktivliyi, təşkilatçılığı, ünsiyyətcilliyi, analitik qabiliyyəti. Ekskursiya zamanı bələçinin temperamenti. Bələdçinin fərdi xüsusiyyətləri. Bələdçinin fərdi xüsusiyyətlərinin turistlərə təsir gücü. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 19 | | *Mövzu 19. Bələdçinin bilik və bacarıqları*<br><br>Bələdçi nitqi. Bələdçinin bilik və bacarıqlarının əlaqəsi. Bacarıqların təsnifatı. Ekskursiya zamanı bələdçinin bilik və bacarıqlarından istifadə olunması. Danışıq və nitq mədəniyyəti, onun xarakteristikası. Dil stili, dil texnikası. Dilin zənginliyi. Dil bacarıqlarından istifadə. Bələdçinin nitq etiketi, ona qarşı tələblər və qaydalar.<br><br>Jestlər və onlardan istifadə. Bələdçinin istifadə etdiyi maneralar. Bələdçinin xarici görünüşü.<br><br>Bələdçi nitqi. Bələdçinin bilik və bacarıqlarının əlaqəsi. Bacarıqların təsnifatı. Ekskursiya zamanı bələdçinin bilik və bacarıqlarından istifadə olunması. Danışıq və nitq mədəniyyəti, onun xarakteristikası. Dil stili, dil texnikası. Dilin zənginliyi. Dil bacarıqlarından istifadə. Bələdçinin nitq etiketi, ona qarşı tələblər və qaydalar.<br><br>Jestlər və onlardan istifadə. Bələdçinin istifadə etdiyi maneralar. Bələdçinin xarici görünüşü. | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

| | | | |
|---|---|---|---|
| 20 | | 20. Ölkəmizin turizm marşrutları<br><br>- Bakı-Xaçmaz turizm marşrutu<br>- Bakı-Astara turizm marşrutu<br>- Bakı-Balakən turizm marşrutu<br>- Bakı-Qazax turizm marşrutu<br><br>- Bakı-Abşeron yarımadası-Qobustan turizm marşrutları<br><br>- Bakı-Naxçıvan turizm marşrutu<br>- Bakı-Şuşa turizm marşrutu | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |
| 21 | | 21. Naxçıvan Muxtar Respublikasının mövcud və potensial turizm marşrutları<br><br>Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar turizm marşrutları<br><br>Naxçıvan-Nehrəm, Naxçıvan-Nəhəcir və Naxçıvan-Sədərək, Naxçıvan-Cəhri, Naxçıvan-Çənnəb, Naxçıvan-Sirab, Naxçıvan-Badamlı Naxçıvan-Kükü-Qanlıgöl turizm marşrutları | |
| 22 | | 22. Turizm səyahətlərində təhlükəsizlik<br><br>Turistləri qəbul edən ölkənin milli mənafelərinin qorunması;<br><br>2. Turizm obyeklərinin və ətraf mühitin qorunması;<br><br>3. Turistlərin şəxsi və əmlak təhlükəsizliyinin təmin olunması.<br><br>Turistlərin təhlükəsizliyi zzamanı müəssisəsinin, regionun iqtisadi, sosial, mədəni inkişafına məsul olan inzibati qurumların, ölkənin üzv olduğu beynəlxalq təşkilatların və yerli əhalinin vəzifəsi<br><br>turizmdə risklərin minimuma endirilməsində rəsmiyyətçiliyə əməl olunması | Mühazirə materialları<br>Ə.X.Cabbarov. Turizm marşrutları və ekskursiya işinin təşkili. Dərs vəsaiti. Bakı-2017.ADPU-nəşriyyatı |

Seminar məşğələləri.Cəmi-30 saat

| | | | |
|---|---|---|---|
| 1 | | 1.Turizm marşrutu analyışı | 2 s. |
| 2 | | 2. Turizm marşrutlarının növləri | 2 s. |

| | | | |
|---|---|---|---|
| 2 | | 3.Turizm marşrutlarının təsnifatı | 2 s. |
| 3 | | 4. Turizm marşrutlarının planlaşdırılması mərhələləri | 2 s. |
| 3 | | 5. Turizm marşrutlarının perspektiv planlaşdırılma | 2 s. |
| 4 | | 6. Turizm marşrutları üçün ilkin şərtlər | 2 s. |
| 5 | | 7. Turun hazırlanma texnologiyas | 2 s. |
| 5 | | 8. Turizm marşrutlaının hazırlanma metodologiyası | 2 s. |
| 6 | | 9.Turizm marşrutlarında xidmətlər zərf | 2 s. |
| 7 | | 10. Turlar zamanı turoperator, təchizatçı və nəqliyyatçılarla müqavilələrin bağlanılması | 2 s. |
| 8 | | 11. Turizm marşrutunun maddi-texniki təminatı | 2 s. |
| 9 | | 12. Turizm marşrutunun kadr və metodik təminatı | 2 s. |
| 10 | | 13. Ekskursiya fəaliyyəti | 2 s. |
| 11 | | 14. Ekskursiyaların hazırlanması | 2 s. |
| 12 | | 15. Ekskursiya zamanı təqdimatın quruluşu | 2 s. |
| 13 | | 16. Ekskursiyanın keçirilmə texnikası | 2 s. |
| 14 | | 17. Ekskursiyalarda təsəvvür yaratma metodologiyası | 2 s. |
| 15 | | 18. Bələdçinin peşəkar ustalığı | 2 s. |

Fənn müəllimi: dos. Ə.X.Cabbarov